


***Noyabrın 1-də Elm və Təhsil Nazirliyi, Təhsilin İnkişafı Fondunun təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan Təhsilin İnkişafı Forumu keçirilib.***

"Təhsildən tərəqqiyə" devizi ilə təşkil olunan forumda iştirakçılarla işgüzar əlaqələrin qurulması, birgə layihələrin planlaşdırılması, həmçinin innovasiya ekosisteminin yaradılması, dövlət - özəl tərəfdaşlığı, təhsil və iqtisadiyyatın inteqrasiyası kimi mövzular üzrə müzakirələr, həmçinin iştirakçıları maraqlandıran sualların yerli və beynəlxalq mütəxəssislər tərəfindən cavablandırılması əsas hədəflərdəndir.

Tədbirdə elm və təhsil naziri Emin Əmrullayev, dövlət rəsmiləri, millət vəkilləri, ali təhsil müəssisələrinin rəhbərləri, özəl sektor əməkdaşları və digər qonaqlar iştirak ediblər.

# TƏHSİLİN İNKİŞAFI FORUMU ÖZ İŞİNİ YEKUNLAŞDIRIB



Tədbirdə əvvəlcə Dövlət Himni səsləndirilib. Daha sonra foruma dair videoçarx nümayiş etdirilib. Açılış nitqi ilə çıxış edən elm və təhsil naziri Emin Əmrullayev təhsil sisteminin nailiyyətlərindən söz açıb. Nazir bildirib ki, təhsil olmadan innovasiya mümkün deyil. Təhsil sisteminin nailiyyətləri isə uzunmüddətli vaxtda innovasiyanın inkişafına təkan verir.

Nazir çıxışının sonunda forumun işinə uğurlar arzulayıb.

Daha sonra Türkiyənin TED Universitetinin rektoru İhsan Sabuncuoğlu məruzə ilə çıxış edib.

Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Elnur Nəsibovun moderatorluq etdiyi "İnnovasiya ekosisteminin yaradılması" adlı ilk paneldə elm və təhsil naziri Emin Əmrullayev, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev, rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov çıxış ediblər.

Forumun ikinci paneli "Universitet - sənaye tərəfdaşlığı" mövzusuna həsr olunub. Paneldən öncə "Bilişim Vadisi" Texnoparkının baş icraçı direktorunun müavini Tuba Öztepe məruzə ilə çıxış edib. Daha sonra "SABAH.HUB"ın icraçı direktoru Rəhim Bayramlının moderatorluğu ilə keçirilən paneldə Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev, Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov, "bp" şirkətinin Xəzər regionunda xarici əlaqələr və kommunikasiya üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli, "NEQSOL Holding"in baş direktoru Yusif Cabbarov, Azərbaycan Beynəlxalq Bankı İdarə Heyətinin sədri Abbas İbrahimov, Sumqayıt Texnologiyalar Parkının baş insan resursları inzibatçısı Şölə Əliyeva spiker qismində çıxış ediblər.

Panel çərçivəsində təhsil və əmək bazarı, sənaye ilə tərəfdaşlıq strategiyası, sənayenin təhsildən gözləntiləri, əlavə dəyərin yaradılması, ekosistemin inkişafında bankların rolu, təhsil ilə iqtisadiyyatın inteqrasiyası, tədqiqat və inkişaf ekosistemi mövzuları ətrafında müzakirələr aparılıb.

Forumun üçüncü paneli "Gələcək üçün təhsil" mövzusuna həsr olunub.

Paneldən əvvəl ABŞ-nin "Coursera" şirkətinin baş müşaviri Çad Paşa məruzə ilə çıxış edib.

Daha sonra ADA Universitetinin prorektoru Fariz İsmayılzadənin moderatorluğu ilə keçirilən paneldə Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov, Azərbaycan Texniki Universitetinin rektoru Vilayət Vəliyev, Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Mustafa Abbasbəyli, "212" şirkətinin baş direktoru Numan Numan, TED Universitetinin Tədqiqat, texnologiya və innovasiyalar bölməsinin direktoru Sanem Yalçıntaş, "AzerTelecom" MMC-nin Direktorlar Şurasının sədri Fuad Allahverdiyev spiker qismində çıxış ediblər.

Panel çərçivəsində ömürboyu təhsil, əmək bazarının dəyişən tələbləri, süni intellekt və təhsil mövzularından bəhs olunub.Qeyd edək ki, "Təhsildən tərəqqiyə" devizi ilə təşkil olunan forum "NEQSOL Holding", "bp" şirkəti, SOCAR, Sumqayıt Texnologiyalar Parkı, Azərbaycan Beynəlxalq Bankı, "Azersun Holding" və "BestComp Group"un sponsorluğu ilə keçirilib.

# AZƏRBAYCAN BÖYÜK ZƏFƏRİNİ DÖYÜŞ MEYDANINDA QAZANDI- MÜZƏFFƏR ALİ BAŞ KOMANDAN İLƏ

***Prezident İlham Əliyev xarici KİV-ə müsahibələrinin birində bildirmişdi ki, biz Qarabağ müharibəsini yox, döyüşləri uduzmuşuq. Bu zəfərlə İlham Əliyev bütün dünyaya sübut etdi ki, Azərbaycanın müharibədə uduzması mümkün deyil. Beləliklə, artıq Cənubi Qafqazda yeni siyasi reallıq dövrü yaranıb. Bu reallığa imza atan lider isə Azərbaycanı qalib edən İlham Əliyevdir. Yeni dövrün aparıcı qüvvəsi isə regionda söz sahibi kimi statusunu və mövqelərini qat-qat gücləndirən Azərbaycandır.***




Böyük Zəfərdən zaman ötdükcə qələbə ilə nəticələnən döyüşlərin bütün istiqamətlər üzrə gedişi, nəticələri, yaratdığı dəyişikliklər daha dərindən araşdırılacaq, öyrəniləcək. Yerli və xarici tarixçilər, hərbi tədqiqat mərkəzləri, ekspertlər yalnız 44 günlük döyüş əməliyyatları dövrünü deyil, eyni zamanda müharibədən əvvəlki və sonrakı mərhələləri də dəqiqliklə təhlil edib araşdırmalar aparacaq, mükəmməl salnamələr yaradacaqlar. Gələcək nəsillər tarixin gedişini dəyişən 44 günlük Vətən müharibəsinin mənzərəsini dərindən, obyektiv və müfəssəl öyrənməli və düzgün nəticə çıxarmalıdır. Bu tarixin yazılmasında Ali Baş Komandan olmaqla "Dəmir yumruq" əməliyyatının iştirakçıları olan bütün şəxslərin mülahizələri və xatirələri xüsusi önəm daşıyır.

Vətən müharibəsi bundan sonra da əsrlər boyu xalqımızın ən böyük vətənpərvərlik tarixi, şanlı qəhrəmanlıq salnaməsi olacaqdır. Ali Baş Komandanımızın müdrik hərbi strategiyası əsasında Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsi zamanı rəşadət və şücaət göstərərək düşmənin 30 ildən artıq davam edən hərbi təcavüzünə son qoymaqla Vətən və xalq qarşısında olan şərəfli vəzifəsini layiqincə yerinə yetirdi. Azərbaycan Ordusunun şəxsi heyətinin Vətən müharibəsində nümayiş etdirdiyi döyüş ruhu, qələbə əzmi, igidlik və qorxmazlıq, müasir ümumqoşun döyüşünün aparılması taktikası, o cümlədən tətbiq etdiyi yeni nəsil silah, hərbi texnika və digər döyüş vasitələri şanlı Zəfərimizə verilən qiyməti daha da yüksək edir.

Azərbaycan və Türkiyə prezidentlərinin iştirakı ilə keçirilən möhtəşəm Zəfər paradı Azərbaycan Ordusunun dünyanın ən gücləri sırasında olduğunun əyani göstəricisi olmaqla bərabər, eyni zamanda "bir millət, iki dövlət" qardaşlıq münasibətlərinin növbəti təntənəsi idi. Azərbaycan xalqı Vətən müharibəsində qardaş Türkiyənin mənəvi dəstəyini heç vaxt unutmayacaq.

Azərbaycan Böyük Zəfərini döyüş meydanında qazandı və siyasi qələbəsini hərbi qələbəsi ilə tamamladı. Azərbaycan xalqı və ordumuz bu Zəfərin nailiyyətlərini əsrlər boyu qoruyub saxlamalı və Ali Baş Komandanın yorulmaz fəaliyyətini hər zaman yüksək dəyərləndirməlidir.

***İradə İbrahimova,***
***"ŞƏMS" körpələr evinin müdiri***

# "İKİNCİ QARABAĞ MÜHARİBƏSİ BİZİM ŞANLI TARİXİMİZDİR"

**Bu sözlərin müəllifi müzəffər ordunun Ali Baş Komandanı cənab İlham Əliyevdir. Bizə uzun illər gözlədiyimiz zəfər sevincini yaşadan Ali Baş Komandan!**

Bu zəfərlə biz Ermənistanın 30 illik işğalına son qoyduq, məğlubiyyət damğasını üzərimizdən götürdük. Torpaqlarımızı azad etməklə həm də bütün dünyada yenidən tanındıq, özü də bu dəfə qalib dövlət, qalib xalq kimi. Haqlı olaraq Azərbaycan ictimaiyyəti İlham Əliyevin qətiyyətini zəfərimizin ən əsas şərtlərindən biri kimi qəbul edir.

Prezident İlham Əliyevin söylədiyi kimi: "Bu Qələbə tarixdə əbədi qalacaq. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində düşmən ordusunu məhv edərək öz ərazi bütövlüyünü bərpa etdi. Mən dəfələrlə demişdim ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq. Dəfələrlə demişdim ki, nəyin bahasına olursa-olsun biz öz torpaqlarımızı geri qaytaracağıq. Dəfələrlə demişdim ki, düşmən öz xoşu ilə torpaqlarımızdan çıxmasa, biz onu torpaqlarımızdan qovacağıq və belə də oldu. Biz Birinci Qarabağ müharibəsindəki məğlubiyyətlə barışmadıq, güc topladıq, bütün gücləri səfərbər etdik, ordumuzu gücləndirdik, ölkə iqtisadiyyatını gücləndirdik, ölkəmizin nüfuzunu qaldırdıq və öz tarixi missiyamızı şərəflə yerinə yetirdik. Biz düşməni torpaqlarımızdan qovduq və ədaləti, beynəlxalq hüququ bərpa etdik. Biz milli ləyaqətimizi bərpa etdik. Bu gün Azərbaycan xalqı müzəffər xalq kimi yaşayır. Bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır. Biz bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağıq."

Vətən müharibəsi işğal altında olan torpaqlarımızın azad edilməsi ilə başa çatdı. Tarixini bu möhtəşəm Qələbə ilə şərəfləndirən Azərbaycan xalqı bütün dünyaya öz gücünü, haqqı uğrunda mübarizə aparmaq




əzmini nümayiş etdirdi. Bu zəfərlə biz Ermənistanın 30 illik işğalına son qoyduq, məğlubiyyət damğasını üzərimizdən götürdük. Bu qələbənin altındakı imzanın müəllifi isə İlham Əliyevin Müzəffər Ali Baş Komandanlığı ilə Azərbaycan Ordusudur. İlham Əliyevin ötən 17 ildə həyata keçirdiyi inkişaf strategiyasının ən böyük uğurlarından biri ordumuzun döyüş qabiliyyətinin artırılmasıdır. Ermənistanla aparılan 26 illik danışıqlar prosesi ilə paralel olaraq Azərbaycanda ordu quruculuğu intensiv şəkildə həyata keçirildi. Döyüş qabiliyyətinin yüksəldilməsi üçün yalnız kəmiyyət deyil, keyfiyyət dəyişikliklərinə üstünlük verildi. Uzun illərdir ki, Azərbaycan dünyada müasir döyüş imkanlarına malik ölkə kimi tanınır. İndiyə kimi keçirilmiş paradlarda, 2016-cı ilin Aprel döyüşlərində hər birimiz ordumuzun döyüş gücünü görüb fərəhlənmişdik.

44 günlük Vətən müharibəsi də ilk gündən müasir döyüş imkanlarından istifadə edən Azərbaycan Ordusunun müzəffər yürüşü ilə yadda qaldı.

İlham Əliyev əks-hücum əməliyyatlarının başladığı ilk günlərdə, şiddətli döyüşlərin getdiyi bir vaxtda - sentyabrın 29-da Mehriban xanım Əliyeva ilə birlikdə yaralanmış hərbçilərlə görüşmüşdü. Döyüşlər bitəndən dərhal sonra da Ali Baş Komandanın Mehriban Əliyeva ilə birlikdə ilk qələbə təbrikini çatdırdığı insanlar hərbçilər oldu. Bu, Azərbaycan Prezidentinin hərbçilərə xüsusi münasibətinin, onlara yüksək diqqətinin növbəti təcəssümüdür.

44 günlük müharibədə Azərbaycanın qələbəsi bir neçə aspektdən də öz möhtəşəmliyi ilə tarixi əhəmiyyət daşıyır. Ən mühüm məsələlərdən biri odur ki, vaxtilə işğal nəticəsində torpaqlarını tərk edən həmvətənlərimiz artıq məcburi köçkün deyillər. Yaralı hərbçilərlə görüşdə Prezident İlham Əliyev bunu həm həmin insanların, həm də özünün həyatında ən xoşbəxt anların təzahürüdür adlandırdı. Bu, həqiqətdir ki, yurd nisgili ilə yaşayan məcburi köçkünlər hər zaman bu ifadədən xilas olmaq istəyiblər və müzəffər Ali Baş Komandan İlham Əliyev onların bu arzusunun həyata keçməsini təmin etdi.

***Vüqar Qasımov,***
***Ədliyyə Nazirliyi Xətai rayon icra şöbəsinin rəisi***



# ƏDLİYYƏ NAZİRLİYİNİN NÜMAYƏNDƏ HEYƏTİ TBİLİSİDƏ BEYNƏLXALQ KONFRANSDA İŞTİRAK EDİB



***Ədliyyə Nazirliyi Mətbuat xidmətindən Hakimiyyet.info.az-a verilən məlumatda bildirilir ki, noyabrın 1-3-də Tbilisi şəhərində Gürcüstan Ədliyyə Nazirliyi tərəfindən "Məhkumların reabilitasiya prosesində yeniliklər" mövzusunda yüksək səviyyəli konfrans keçirilib. Tədbirdə iştirak etmək üçün Azərbaycan ədliyyə nazirinin müavini - Penitensiar xidmətin rəisi Mirsaleh Seyidov nümayəndə heyəti ilə Gürcüstanda səfərdə olub.***

Səfər zamanı əvvəlcə Tbilisi şəhərində Heydər Əliyev parkında bu il 100 illiyini geniş qeyd etdiyimiz Ümummilli Liderin abidəsi ziyarət olunub, önünə gül dəstələri qoyularaq əziz xatirəsinə dərin ehtiram bildirilib.

Avropa Həbsxana və İslah Xidmətləri Təşkilatı (EuroPris) və ABŞ Dövlət Departamentinin Beynəlxalq Narkotiklərlə Mübarizə və Hüquq-Mühafizə İşləri Bürosu ilə birgə təşkil olunan konfransda 20 dövlətdən 200-dən çox nümayəndə, o cümlədən ədliyyə orqanlarının və penitensiar xidmətlərin rəhbərləri, beynəlxalq təşkilatların təmsilçiləri iştirak ediblər.

Tədbirdə Gürcüstanın Baş naziri İrakli Qaribaşvili, ədliyyə naziri Rati Breqadze və digər rəsmi şəxslər açılış nitqi ilə çıxış edib, penitensiar sistemdə rəqəmsallaşma, saxlama şəraitinə dair beynəlxalq standartlar, məhkumlar üçün reabilitasiya proqramları, bu sahədə əməkdaşların təlimi və s. aktual məsələlər müzakirə olunub, iştirakçı dövlətlər öz təcrübələrini bölüşərək təqdimatlar keçirilib.

Azərbaycanın nümayəndə heyəti ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə ədliyyə sisteminin inkişafı çərçivəsində penitensiar sahədə aparılan islahatlar, infrastrukturun müasirləşdirilməsi, məhkumların islah prosesi və cəmiyyətə reinteqrasiyası, bərpaedici ədliyyə ilə bağlı görülən işlər, bu sahədə vətəndaş cəmiyyəti institutları ilə səmərəli əməkdaşlıq barədə məlumat verib. Məhkumların tibbi təminatı, o cümlədən vərəmlə mübarizədə beynəlxalq aləmdə təqdir olunan müsbət təcrübəmiz, bu sahədə beynəlxalq statusa malik Təlim mərkəzinin fəaliyyəti maraqla qarşılanıb.

Tədbir çərçivəsində Gürcüstan Ədliyyə Nazirliyinin rəhbərliyi ilə ikitərəfli görüşlər keçirilərək iki ölkə arasında əməkdaşlığın yüksək səviyyəsi qeyd olunub, əlaqələrimizin inkişafında dövlət və hökumət başçılarının xüsusi rolu vurğulanıb. Hüquqi sahədə əməkdaşlığın perspektivləri müzakirə edilib, birgə tədbirlərin və təcrübə mübadiləsinin əhəmiyyəti qeyd olunub. Nazir müavini Beka Camaşvili Azərbaycanın penitensiar sahədə nailiyyətlərinin şahidi olduğu bildirib.

Həmçinin, digər dövlətlərin ədliyyə orqanlarının rəhbərləri ilə penitensiar sahədə yaxşı təcrübələrin təşviqinə dair diskussiyalar keçirilib, əməkdaşlıq məsələləri müzakirə edilib.

Səfər zamanı Azərbaycanın nümayəndə heyəti Gürcüstanın penitensiar müəssisələrinə baş çəkərək məhkumların saxlanma şəraiti, islah prosesi və tibbi təminatı ilə tanış olub, faydalı fikir və təcrübə mübadiləsi aparılıb.

Eyni zamanda Tbilisidə publik hüquqi şəxs olan "Levan Samxarauli adına Milli Ekspertiza Bürosu"na səfər edilərək fəaliyyəti ilə tanışlıq olub, qurumun rəhbərliyi ilə görüşülərək məhkəmə ekspertizası sahəsində əlaqələrin qurulmasına və təcrübə mübadiləsinə dair müzakirələr aparılıb.

Keçirilən görüşlərdə tərəf-müqabilləri azad edilmiş ərazilərimizin bərpası, bu prosesə ciddi əngəl törədən və çoxsaylı insanların ölümünə və yaralanmasına səbəb olan Ermənistanın mina terroru və buna qarşı həyata keçirilmiş lokal xarakterli antiterror tədbirləri ilə bağlı əsl həqiqətlər barədə məlumatlandırılıb, Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsi və suverenliyini tam bərpa etməsi münasibətilə təbrik ediblər.

Tədbirlərdə Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev iştirak edib.